# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Yeni ev almaq istəyənlər nəyə diqqət etməlidir?**



6

№ 065 (7475)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 sentyabr 2026-cı il.
Qiyməti 1 manat

## Prezident İlham Əliyev Bişkekdə Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb



3

# Köçəryanın HƏBSİ - Paşinyan revanşistləri çökdürür

Keçmiş prezident Robert Köçəryanın həbsi İrəvanda yeni qarışıqlıqlara səbəb olub




4

**Süni intellekt əmək bazarını necə dəyişəcək?**



5

**Çəksən də öldürür, çəkməsən də: siqaret bəlası**



7

**Ailə qurmaq istəyənlərin sayı azalır - TƏHLÜKƏ QAPIDADIR!**



8

**Tramp Venesuela neftinə ƏL QOYDU - 100 illik istismar!**



5

**Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələdə**



7

# Azərbaycanla ŞƏT əməkdaşlığında yeni perspektivlər

## *Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə mühüm görüşlər keçirib*

***Regionda, dünyada Azərbaycanla bağlı baş verənlər, böyük siyasi güclərin ölkəmizə münasibəti, Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəmin verilməsi ölkəmizlə münasibətlərin qurulmasında maraqlı olduqlarının təzahürüdür. Mövcud münasibətlər Azərbaycanın dünya dövlətləri ilə siyasi, iqtisadi, humanitar sahələrdə, eləcə də beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığına söykənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğız Respublikasına işgüzar səfərə gəlməsi dünyada qətiyyətli və uzaqgörən lider kimi böyük nüfuz qazanmış Prezident İlham Əliyev şəxsiyyətinə dərin hörmət və ehtiramın ifadəsidir.***

Səfər çərçivəsində Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşü olub. Azərbaycan Prezidenti həmin gün Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub.

Dövlətimizin başçısı Qazaxıstan Respublikasının yeni parlamentinə - Qurultaya keçirilən ilk seçkilərin uğurla baş tutması münasibətilə təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə ölkədə aparılan genişmiqyaslı islahatlara Qazaxıstan xalqının dəstəyinin növbəti nümunəsi idi. Qazaxıstan Prezidenti dövlətimizin başçısının göndərdiyi təbrik məktubuna və Azərbaycandan olan müşahidəçilərin bu seçkilərdə fəal iştirakına görə minnətdarlığını bildirdi. Görüşdə Azərbaycanla Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin dərinləşdirilməsində yüksək səviyyədə qarşılıqlı səfərlərin və təmasların önəmi vurğulandı. Nəqliyyat-logistika məsələləri müzakirə olundu, Orta Dəhlizin əhəmiyyətinə toxunuldu, bu istiqamətdə Azərbaycanla Qazaxıstan arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.





Dövlət başçıları Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin sammitinin Bakıda keçiriləcəyinə də toxundular. Söhbət zamanı gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Bəli, Azərbaycanın bu tədbirdə iştirakı, eyni zamanda, ölkəmizin Şərq ilə Qərb arasında bütün sahələrdə mühüm körpü rolunu oynamasına dəlalət edir. Vurgulayaq ki, Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsidir.

Eyni zamanda regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılması müasir dövrün çağırışları olduğunudan məqsəd olaraq daim diqqətdə saxlanılır.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

Qeyd edək ki. Azərbaycanın ŞƏT-lə əməkdaşlığı uğurla davam edir. Onu da vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu ŞƏT ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə mühüm töhfə verir. Fondun təşkilatçılığı ilə ŞƏT-in Pekindəki mənzil-qərargahında 2018-ci ildə Azərbaycan mədəniyyəti günü, 2021-ci ildə isə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilib və qərargahda Nizami Gəncəvinin büstü qoyulub. N.Gəncəvi Çin filosofu Konfutsidən sonra ŞƏT-in qərargahında büstü qoyulmuş ikinci tarixi şəxsiyyətdir. Azərbaycan-ŞƏT əməkdaşlığı hər iki tərəfin qarşılıqlı maraqlarına xidmət edir və iqtisadi tərəfdaşlıq, nəqliyyat əlaqələri, terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı, sivilizasiyalararası dialoqun təşviqi kimi sahələri əhatə edir. 2022-ci ildə isə ŞƏT-in Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə Görüşündə Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak etmişdir.





**Ardı Səh. 3**

# Azərbaycanla ŞƏT əməkdaşlığında yeni perspektivlər

*Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə mühüm görüşlər keçirib*

Əvvəli Səh. 2

Qeyd edək ki, ölkə başçımız ŞƏT-in həmin Sammitində çıxışı zamanı Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə çatdıraraq bir çox mühüm məsələlər barədə Azərbaycanın yeni dövrün tələbləri ilə bağlı mövqeyini açıqlamışdı.

## MÜNASİBƏTLƏRDƏ YENİ SİYASİ DİNAMİKA

Son illərdə Azərbaycan-ŞƏT münasibətlərində siyasi dinamika əhəmiyyətli dərəcədə artıb. Bu prosesdə Çin amili xüsusi əhəmiyyət daşıyır. 2024-cü il iyulun 3-də Astanada Azərbaycan və Çin arasında imzalanmış "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də Çin Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığının gücləndirilməsi səylərini alqışlayıb və ölkəmizin təşkilatda hüquqi statusunun yüksəldilməsini dəstəklədiyini bildirib. Çinin ŞƏT-in aparıcı dövlətlərindən biri olması və Azərbaycanla strateji tərəfdaşlığının inkişafı bu istiqamətdə yeni imkanlar yaradır. Azərbaycanın ŞƏT-lə siyasi təmaslarının intensivləşməsi Prezident İlham Əliyevin təşkilatın yüksəksəviyyəli tədbirlərində iştirakı ilə də özünü göstərir. Dövlətimizin başçısı 2022-ci ildə Özbəkistanda keçirilən ŞƏT Sammitində fəxri qonaq qismində iştirak edib, 2024-cü ildə Qazaxıstanda keçirilən sammitdə çıxış edib, 2025-ci ildə isə Çinin Tiencin şəhərində təşkilatın tədbirlərinə qatılıb. Azərbaycan-Çin münasibətlərinin son illərdə yeni səviyyəyə yüksəlməsi də ŞƏT çərçivəsində əməkdaşlığın praktiki məzmununu gücləndirən amillərdəndir. Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləməsi, Çində "Azərbaycan Ticarət Evi"nin fəaliyyət göstərməsi, ticarət, investisiya və logistika sahələrində əlaqələrin genişlənməsi iki ölkə arasında əməkdaşlığın iqtisadi əsaslarını möhkəmləndirir. Prezident İlham Əliyevin 2025-ci il avqustun 31-də Tiencində keçirilən "ŞƏT plyus" formatında görüşdə iştirakı da bu baxımdan xüsusi əhəmiyyət daşıyıb. Dövlətimizin başçısı Azərbaycan-Çin əlaqələrinin son iki ildə keyfiyyətcə yeni mərhələyə yüksəldiyini, strateji tərəfdaşlıqdan hərtərəfli strateji tərəfdaşlığa keçidin rəsmiləşdirildiyini bildirib. Həmin gün Si Cinpinlə keçirilən görüşdə Azərbaycanın ŞƏT-lə əlaqələrinin genişləndirilməsi məsələsinin müzakirə olunması da bu istiqamətin ikitərəfli gündəlikdəki əhəmiyyətini göstərib. Azərbaycanın ŞƏT-lə əməkdaşlığı siyasi dialoqla yanaşı, təhlükəsizlik, iqtisadiyyat və humanitar sahələri də əhatə edir. Azərbaycanın ŞƏT məkanındakı mövqeyini gücləndirən əsas amillərdən biri Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin sürətlə inkişaf etməsidir. Bu baxımdan ŞƏT-in 2026-cı ildə Qırğızıstanın paytaxtı Bişkekdə keçiriləcək Zirvə toplantısı xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan-Qırğızıstan münasibətlərinin cari il iyulun 31-də imzalanmış Müttəfiqlik münasibətləri haqqında Müqavilə ilə yeni mərhələyə yüksəlməsi, Dövlətlərarası Şuranın fəaliyyəti, yüksəksəviyyəli qarşılıqlı səfərlər və humanitar layihələr iki ölkə arasında əməkdaşlığın möhkəm institusional əsaslara malik olduğunu göstərir. Qırğızıstanın ŞƏT-ə sədrliyi fonunda bu münasibətlərin yüksək səviyyəsi Azərbaycanın təşkilatla əlaqələri üçün əlavə siyasi və iqtisadi imkanlar yaradır.

Azərbaycanın müxtəlif geosiyasi məkanlarla paralel əməkdaşlıq siyasəti də ŞƏT-lə münasibətlərinin məzmununu genişləndirir. Avropa ilə siyasi və iqtisadi əlaqələrin inkişafı, Türk dünyası və İslam ölkələri ilə əməkdaşlığın dərinləşdirilməsi ölkəmizin müxtəlif regional platformalar arasında əlaqələndirici rolunu gücləndirir. Cənubi Qafqazda yeni sülh reallıqlarının formalaşması isə bu imkanlara nəqliyyat və iqtisadi bağlantılar baxımından əlavə məzmun qazandırır.

## ƏMƏKDAŞLIĞA ARTAN MARAQ

Azərbaycanın ŞƏT ilə əməkdaşlığı çoxsahəli və hərtərəfli xarakter daşıyır. Ölkəmizin son illər beynəlxalq arenadan artan nüfuzu, həmçinin Avrasiya məkanında əsas tranzit qovşağa çevrilməsi Azərbaycanın ŞƏT üçün əhəmiyyətini daha da artıran faktorlar sırasındadır. Azərbaycanda həm təhlükəsizlik, həm də iqtisadi inkişaf sahəsində daha mühüm rol oynamağa başlayan ŞƏT ilə daha sıx əməkdaşlıqda maraqlıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı layihələr Azərbaycanın regionda mühüm tranzit qovşağına çevrilməsinə şərait yaradıb. Xüsusilə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın beynəlxalq logistik mərkəz kimi rolunu daha da artırır. Bu, Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlıq etdiyi ölkələrlə ticarət və iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir. ŞƏT-in Astana Zirvə görüşü terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı, sivilizasiyalararası dialoq və multikulturalizmin təşviqi kimi sahələrdə əməkdaşlığı müzakirə etmək üçün əhəmiyyətli platformadır. Bu məsələlər Azərbaycanın xarici siyasətinin əsas prioritetləri sırasında yer alır və ölkəmizin bu sahələrdəki mövqeyini daha da möhkəmləndirir. Xatırladaq ki, Orta Dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu məhz Azərbaycanın sərmayələri hesabına başa gəlib. Postmüharibə dövründə Azərbaycanın yürütdüyü xarici siyasət, regionda həyata keçirilən infrastruktur layihələrin icrası ölkəmizi regionun regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevirir. Yaranan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin iştirakçısı qismində Azərbaycanın əlverişli tranzit imkanlarından geniş istifadə edilməsi üçün Azərbaycan regiondakı geosiyasi mövqeyinə mühüm təsir göstərən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ilə bağlı mühüm addımlar atıb. ŞƏT ilə əməkdaşlıq Azərbaycanın beynəlxalq səviyyədə səsinin eşidilməsi, mövqeyinin çatdırılması baxımından vacib bir platformadır. Prezident İlham Əliyevin zirvə görüşlərində iştirakı və etdiyi çıxışlar ölkəmizlə bağlı ən mühüm məsələlərin, prioritetlərin qlobal səviyyədə geniş ictimaiyyətə çatdırılmasını təmin edir. Hazırda Azərbaycan qlobal səviyyədə söz sahibi olan ölkələrdən birinə çevrilib. Əlbəttə ki, dövlət başçımızın Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirlərində iştirakı Azərbaycan üçün təşkilat ilə əməkdaşlığın daha geniş sahələri əhatə etməklə, gələcək inkişaf perspektivlərinin müəyyən edilməsi baxımından böyük əhəmiyyət daşıyacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Prezident İlham Əliyev Bişkekdə Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində avqustun 31-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüş keçirib.***

Liderlər 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvə görüşünün, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın imzaladıqları Birgə Bəyannamənin, həmçinin "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanmasının tarixi əhəmiyyətini vurğulayıblar.

Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən taxıl və digər əmtəənin Azərbaycan ərazisi ilə Ermənistana tranziti, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin qurulması sülh dividendlərinin mühüm əyani təzahürü kimi qeyd edilib. Liderlər, həmçinin işgüzar dairələr arasında təmasları alqışlayıb və qarşılıqlı faydalı iqtisadi, ticarət və enerji əməkdaşlığının daha da genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan ilə Ermənistanın dövlət sərhədinin delimitasiyası üzrə müvafiq dövlət komissiyalarının mühüm rolunu qeyd edib, onların iki ölkə arasında əldə olunmuş razılaşmalara uyğun olaraq, öz işlərini davam etdirməsinin vacibliyini vurğulayıblar.

Liderlər Vaşinqton Sülh Zirvə görüşünün mühüm nəticələrindən biri olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) həyata keçirilməsi ilə bağlı növbəti praktiki addımlar barədə müzakirə aparıb və TRIPP boyunca bağlantı layihələrinin əhəmiyyətini qeyd ediblər.

Liderlər parlamentarilər və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı etimadın gücləndirilməsi və daha geniş sülh gündəliyinin dəstəklənməsinə verdikləri töhfələrini qeyd edərək, onların iştirakı ilə etimad quruculuğu üzrə təmasları müsbət dəyərləndiriblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan birbaşa ikitərəfli təmaslar vasitəsilə davamlı sülhün daha da möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsi və bağlantıların gücləndirilməsi istiqamətində addımları davam etdirmək barədə razılığa gəliblər.

# Köçəryanın HƏBSİ - Paşinyan revanşistləri çökdürür

## Keçmiş prezident Robert Köçəryanın həbsi İrəvanda yeni qarışıqlıqlara səbəb olub

***İrəvan məhkəməsi keçmiş prezident və müxalifətdəki Ermənistan Partiyasının lideri Robert Köçəryanı vəzifə səlahiyyətlərindən sui-istifadə və külli miqdarda çirkli pulların yuyulmasında ittiham edərək iki ay müddətinə həbs edib. Robert Köçəryanla yanaşı, onun oğulları və prezidentliyi dövründə yaxın çevrəsinin üzvləri də cinayət məsuliyyətinə cəlb olunublar. Baş nazir Paşinyan tərəfindən başladılan yüksək səviyyəli məhkəmə prosesi, korrupsiyaya qarşı əsl mübarizə gözləyən ictimaiyyət arasında onun dəstəyini gücləndirmək və Moskva və Bakıya partiyasının seçkilərdə qələbəsindən sonra "Qarabağ klanı"nın siyasi irsinin fəal şəkildə dağıdılmasının davam etdiyini bildirmək məqsədi daşıyır.***




1998-ci ildən 2008-ci ilə qədər ölkəni on il idarə edən Ermənistanın ikinci prezidenti Robert Köçəryanın iki ay müddətinə həbs cəzası qərarı 27 avqustda İrəvan məhkəməsi tərəfindən olduqca dramatik şəraitdə qəbul edilib. Keçmiş dövlət başçısının vəkili Aram Orbelyanın sözlərinə görə, müvəkkili iki həftə əvvəl stent prosedurundan sonra sağaldığı xəstəxananın arxa girişindən məhkəməyə gətirilib. Hadisə yerinə gələn müxbirlər məhkəmə binasının qarşısında təcili yardım maşınının dayandığını görüblər.

Məhkəmə iclası ərəfəsində Ermənistan Baş Prokurorluğu Robert Köçəryana qarşı "vəzifə səlahiyyətlərindən sui-istifadə (üç maddə), xüsusilə böyük miqdarda rüşvətxorluq (iki maddə) və xüsusilə böyük miqdarda çirkli pulların yuyulması (dörd maddə)" maddələri ilə cinayət işi açıldığını açıqlayıb. İttiham tərəfinin məlumatına görə, cənab Köçəryan 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində prezident olarkən dövlət əmlakını mənimsəmək və bir sıra dəyərli dövlət və iqtisadi aktivləri bazar dəyərindən xeyli aşağı qiymətlərlə əldə etmək üçün ona yaxın



şəxslərlə əlbir olub.

Buna cavab olaraq Baş Prokurorluq Köçəryanlar ailəsinə məxsus daşınmaz əmlakın köçürülməsinin və ya özgəninkiləşdirilməsinin qarşısını almaq üçün tədbirlər görüb. Robert Köçəryanın vəkili Aram Orbelyan müvəkkilinə qarşı irəli sürülən ittihamların "cinayətkarlığın mövcudluğu baxımından ciddi hüquqi şübhələr doğurduğu və Robert Köçəryanın hərəkətlərinin təsnifatında fundamental hüquqi qüsurların olduğu" fikrini bildirib. Müdafiə tərəfinin etirazlarına baxmayaraq, Ermənistan Baş Prokurorluğu keçmiş dövlət başçısının yaxın çevrəsinin doqquz üzvünə qarşı da cinayət işi açıb. Onların arasında Köçəryanın yerinə prezident olan və 2008-ci ildən 2018-ci ilə qədər, yəni Nikol Paşinyanın "məxməri inqilabı"na qədər ölkəyə rəhbərlik edən Serj Sarkisyan, eləcə də keçmiş baş nazir Andranik Marqaryan (2007-ci ildə vəfat etmiş) və Yerevanın keçmiş meri Qaqik Beqlaryan da var idi.

25 avqustda Yerevan məhkəməsi Baş Prokurorluğun Robert Köçəryanın böyük oğlu Sedrakın həbsi ilə bağlı vəsatətini təmin edib. "Sedrak Köçəryanın iki aydır ki, həbsdə olduğu bildirilir. Həyat yoldaşı və uşaqları istisna olmaqla, onun görüş hüquqları məhdudlaşdırılıb. Biz təqiblərlə siyasi kontekstdə məşğuluq", - deyə vəkil Aleksandr Koçubayev bildirib. O, bəzi hallarda uydurma olan ittihamların bütün işlərdə müddətinin bitdiyini və buna görə də müdafiə tərəfinin məhkəmənin qərarından apelyasiya şikayəti verəcəyini bildirib.

Robert Köçəryanın kiçik oğlu, Ermənistan fraksiyasından parlament üzvü olan Levon Köçəryanın hələ də azadlıqda olduğu bildirilir, lakin Ermənistan Milli Təhlükəsizlik Xidməti atası və böyük qardaşının həbsindən bir gün əvvəl onun mənzilində axtarış aparıb.

Levon Köçəryanın vəkili Erik Aleksanyanın sözlərinə görə, iş qanunsuz əldə edilmiş əmlak ətrafında cərəyan edir. "De-yure, Levon Köçəryanın heç bir statusu yoxdur, amma de-fakto o, təqsirləndirilən şəxs statusuna malikdir, çünki axtarış cinayət əlamətləri olan faktları aşkar etməyə yönəlmiş kəşfiyyat işini nəzərdə tutur. Bu axtarış Levon Köçəryanın evində qanunsuz əmlak və ya pul saxlayıb-saxlamadığını müəyyən etmək üçün aparılıb", - deyə Aleksanyan bildirib.

Robert Köçəryanın və ailə üzvlərinin həbsindən əvvəl 24 avqustda parlamentdə Levon Köçəryanla Ermənistanın baş naziri Nikol Paşinyan arasında mübahisə baş verib. Müxalifətdəki Ermənistan blokundan olan və baş naziri "Qarabağı dağıdan və minlərlə insanın ölümünə səbəb olan" "xain və xain" adlandıran deputatla söhbət zamanı Nikol Paşinyan Robert Köçəryanın ailəsinin tezliklə əmlakını itirəcəyini bildirib. "Bütün Ermənistan Baş nazirin Robert Köçəryanın ailəsinə və yaxınlarına qarşı saxta cinayət işləri açmaq, təzyiq göstərmək və terror törətmək üçün hüquq-mühafizə orqanlarına birbaşa əmrlər verdiyinin şahidi oldu", - deyə Ermənistan Partiyasından olan millət vəkili Sevak Xaçatryan parlamentdə baş verən hadisə ilə bağlı şərh verib. "Məndə elə təəssürat yarandı ki, Nikol Paşinyan bütün müqavimət mərkəzlərini, milli mərkəzləri, milli ideologiya daşıyıcılarını və liderləri zərərsizləşdirmək istəyir", - deyə millət vəkili Mesrop Manukyan əlavə edib.

Müxalifət Baş naziri köhnə siyasi elitanın üzvlərinə qarşı cinayət işləri dalğası ilə siyasi məkanı təmizləməkdə ittiham edərkən, Nikol Paşinyan tərəfdarlarına partiyasının parlament seçkilərindəki son qələbəsindən sonra, onun sələflərinin dövründə çiçəklənən korrupsiya ilə mübarizə aparmaq vədlərini yerinə yetirmək niyyətində olduğuna dair bir siqnal göndərir.

Qeyd etmək lazımdır ki, Ermənistanın siyasi elitasının keçmiş lideri Robert Köçəryanın builki seçkilərdən bir az əvvəl RTVI-yə verdiyi müsahibədə Paşinyanın siyasətinin "Azərbaycanı Qarabağda hərbi əməliyyatlara başlamağa təşviq etdiyi" fikrini bildirməsi diqqət çəkib. "Onlar Ermənistan rəhbərliyində Ermənistanın təhlükəsizliyinin geosiyasi strukturunu məhv edən və strateji müttəfiqi ilə münasibətlərinə xələl gətirən bir şəxsin peyda olduğu anı seçdilər", - deyə Qarabağ münaqişəsinin ideoloqu kimi tanınan Robert Köçəryan bildirib.

Nikol Paşinyan öz növbəsində keçmiş prezident Köçəryana qarşı ittihamlar irəli sürməklə, Bakıya Qarabağ münaqişəsi və onun Ermənistandakı əsas qəhrəmanları haqqında nəhayət ki, səhifəni çevirmək istəyini nümayiş etdirir.

Robert Köçəryanın prezidentliyi dövründə bütün postsovet məkanında Rusiyaya ən yaxın siyasətçilərdən biri olduğunu və Prezident Putinlə yaxın şəxsi münasibətlər saxladığını nəzərə alsaq, Moskva Nikol Paşinyanın Ermənistan dövlətinin keçmiş başçısına qarşı hərəkətlərinin daha bir hədəfinə çevrilib. Beləliklə, Robert Köçəryanı məhkəməyə verməklə Nikol Paşinyan təkcə Azərbaycanla deyil, həm də bu yaxınlarda etiraf etdiyi kimi, artıq strateji tərəfdaş hesab etmədiyi Rusiya ilə münasibətlərdə səhifəni dəyişmək istəyini nümayiş etdirir.

### Yeri gəlmişkən...

Rusiya Prezidenti Vladimir Putin Ermənistanın ikinci Prezidenti Robert Koçaryana ad günü münasibətilə teleqram göndərib. Bu gün erməni siyasətçinin 72 yaşı tamam oldu. Putin teleqramda bildirib ki, "Rusiyada ölkələrimiz arasında dostluq və müttəfiqlik əlaqələrinin inkişafına verdiyiniz şəxsi töhfəni unutmuruq". O, keçmiş həmkarına möhkəm cansağlığı və mənəvi güclə yanaşı, "sizin və ailə üzvlərinizin hazırda üzləşdiyiniz sınaqlar qarşısında dözümlülük" arzulayıb.

Robert Koçaryan 1998-ci ildən 2008-ci ilə qədər Ermənistana rəhbərlik edib. Avqustun 25-də siyasətçi və böyük oğlu Sedrak Koçaryan bir neçə onlarla ünvanda aparılan axtarışlardan sonra saxlanılıblar. Robert Koçaryan avqustun 27-də həbs edilib. O, prezidentlik müddəti ərzində törədilmiş korrupsiya cinayətlərində ittiham olunur.

***V.VƏLİLİ***

# Tramp Venesuela neftinə ƏL QOYDU - 100 illik istismar!

## Mətləb Salahov: "Venesuelanın neft ehtiyatlarının ABŞ-nin nəzarətinə verilməsini nəzərdə tutan 100 illik müqavilə açıq şəkildə iqtisadi istismar sənədidir"

**"Əvvəla ondan başlayaq ki, ABŞ dövlət başçısı Donald Tramp artıq bütün beynəlxalq hüquq normalarını bir kənara atıb, digər bir suveren dövlətin təbii sərvətlərini nümayişkaranə şəkildə mənimsəmək presedenti yaratdı. Əslində, bu mənfi presedent Venesuela prezidenti Nikolas Maduro gecənin bir aləmi yatağından oğurlanıb, başına çuval keçirilib gecə ikən ABŞ-a gətiriləndə yaranmışdı. Bu, beynəlxalq hüquq üçün, dünya düzəni üçün olduqca təhlükəli bir adətin əsası kimi tarixdə qaldı.**

Bu hadisənin beynəlxalq hüquq baxımından qiymətləndirilməsi dünya düzənindəki acınacaqlı vəziyyətin gerçək üzünü də ortaya qoydu. "Kim güclüdür, hər şeydə haqlıdır" kimi qorxulu presedent beynəlxalq münasibətlər sistemi üçün daha dərin normativ problem kimi üzə çıxdı. BMT Nizamnaməsinin əsas prinsiplərinə görə, dövlətlərin ərazi toxunulmazlığı, siyasi müstəqilliyi və gücdən istifadənin qadağan olunması beynəlxalq nizamın təməl sütunlarıdır. Əlbəttə, yalnız kağız üzərində!".



Bu fikirləri SİA-ya açıqlamasında araşdırmaçı jurnalist Mətləb Salahov bildirib. O qeyd edib ki, əlbəttə, Ağ Ev rəhbərinin davası N.Maduro ilə deyildi. Guya bu ölkədən narkotik qaçaqmalçılığının Amerika ölkəsi üçün yaratdığı təhlükəyə görə ABŞ rəhbərliyi Venesuelaya müdaxilə etdi. Əslində dünyada ağlı başında olan hər kəsə aydındır ki, D.Tramp Administrasiyası Venesuelanın zəngin neft qaynaqları və digər milli sərvətlərinə əl qoymaq üçün bu ölkədə əməliyyat keçirdi. İndi isə məlum olur ki, Vaşinqton administrasiyasının təzyiqi ilə Venesuela ilə neft ehtiyatlarının ABŞ-ın nəzarətinə verilməsini nəzərdə tutan müqavilənin imzalanması açıq şəkildə iqtisadi istismar sənədidir: "Bu, Trampın da açıqladığı kimi, dünya tarixində ən böyük neft müqaviləsidir. Diqqət edin: bu müqavilə yuxarıda qeyd etdiyimiz maraqların artıq hüquqi baxımdan sənədləşdirilməsi prosesidir.

Üstəlik, bu sövdələşmə Vaşinqtonun "North American Blue Energy Partners" özəl şirkətində birbaşa pay almasını nəzərdə tutur ki, bu şirkətə də ölkə ehtiyatlarının beşdə birini təşkil edən təxminən 65 milyard barel ehtiyata malik 17 Venesuela neft yatağı üzərində yüzillik hüquqlar veriləcək - 100 illik hüquq!

Hazırkı Ağ Ev rəhbərliyinin digər bir Cənubi Amerika dövlətinin təbii sərvətlərini bu şəkildə istismar etməsi, həm də yüz illərdir ABŞ-ın elan etdiyi demokratik dövlət ənənələrinin lazımsız kağız parçası kimi tarixin zibilliyinə atılması və əvəzində imperiyanın iqtisadi maraqları üçün digərlərinin sərvətlərinin qamarlanması deməkdir", - deyə M.Salahov bildirib.

***Afət Tahirqızı***

# Süni intellekt əmək bazarını necə dəyişəcək?

*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*



"İlk növbədə bir məsələyə aydınlıq gətirmək istəyirəm ki, sahibkarlar və işçi qüvvəsi süni intellektin inkişafının əmək bazarını tamamilə dəyişəcəyi və nəticədə insan əməyinin bütövlükdə əvəz olunacağı qənaətinə gəlməməlidirlər". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Günay Hüseynova bildirib. Onun sözlərinə görə, süni intellektin inkişafı, şübhəsiz ki, müəyyən peşə və fəaliyyət sahələrində insan əməyinə olan tələbatı azalda, bəzi prosesləri avtomatlaşdıra və bir sıra iş funksiyalarını texnologiyanın üzərinə keçirə bilər: "Lakin bu, insan əməyinin 100 faiz əvəz olunması demək deyil. Əksinə, süni intellekt bir çox hallarda insanın işini tamamlayan, onun məhsuldarlığını və qərarvermə imkanlarını artıran mühüm bir alətə çevrilir.

Burada əsas məsələ əmək bazarının yox olması deyil, onun strukturunun dəyişməsidir. Texnologiyanın inkişafı ilə bəzi peşələrə tələbat azalarkən, yeni ixtisaslar və yeni iş istiqamətləri meydana çıxır. Yeni gələcək əmək bazarında insanın texnologiya ilə rəqabət aparmasından daha çox, texnologiyadan səmərəli istifadə edə bilən əmək qüvvəsinə üstünlük veriləcək. Bu baxımdan işçilərin yeni bilik və bacarıqlar əldə etməsi, rəqəmsal savadlılığını artırması və əmək bazarının yeni tələblərinə uyğunlaşması xüsusi əhəmiyyət daşıyır.

Süni intellektin inkişafı, eyni zamanda, müəyyən sahələrin təkmilləşdirilməsi və iqtisadiyyatın daha məhsuldar fəaliyyət göstərməsi baxımından böyük əhəmiyyətə malikdir. Müəssisələr məlumatların daha sürətli təhlili, istehsal proseslərinin optimallaşdırılması, xərclərin azaldılması və müştəri tələbatının daha dəqiq müəyyənləşdirilməsi üçün süni intellekt texnologiyalarından istifadə edə bilərlər. Bu isə həm məhsuldarlığın yüksəlməsinə, həm də şirkətlərin daxili resurslardan daha səmərəli istifadəsinə imkan yaradır.



Süni intellektin əmək bazarında hansı ixtisaslara iqtisadi tələbatı artıracağına gəldikdə isə ilk növbədə süni intellekt, informasiya texnologiyaları, proqramlaşdırma, data analitikası, kibertəhlükəsizlik, maşın öyrənməsi və böyük verilənlərin idarə olunması kimi sahələri qeyd etmək olar. Bununla yanaşı, yalnız texniki ixtisaslara deyil, süni intellektdən müxtəlif sahələrdə istifadə edə bilən mütəxəssislərə də tələbat artacaq. Məsələn, maliyyə, marketinq, logistika, səhiyyə, təhsil və idarəetmə sahələrində çalışan şəxslər üçün süni intellekt alətlərindən istifadə bacarığı gələcəkdə mühüm üstünlüklərdən birinə çevrilə bilər.

Digər tərəfdən, süni intellektin inkişafı sahibkarlıq fəaliyyətinin genişlənməsi və investisiya mühitinin daha da inkişaf etdirilməsi baxımından da mühüm imkanlar yaradır. Rəqəmsallaşmış və avtomatlaşdırılmış sistemlər biznes proseslərində şəffaflığın artırılmasına, insan faktorundan qaynaqlanan bəzi risklərin və inzibati maneələrin azalmasına şərait yaradır. Bu isə sahibkar üçün daha proqnozlaşdırılan və əlverişli biznes mühitinin formalaşmasına kömək edə bilər.

Xüsusilə də insan müdaxiləsinin minimuma endirildiyi, proseslərin rəqəmsal platformalar üzərindən həyata keçirildiyi və qərarların daha sürətli qəbul olunduğu sistemlər sahibkarlıq subyektləri üçün mühüm əhəmiyyət daşıyır. Belə mühit həm yerli sahibkarların fəaliyyətinin genişlənməsinə, həm də xarici investorların ölkəyə marağının artmasına müsbət təsir göstərə bilər.

Bu baxımdan dövlətin rəqəmsal transformasiya və süni intellekt sahəsində həyata keçirdiyi tədbirlər də xüsusi əhəmiyyət daşıyır. İqtisadiyyatın rəqəmsallaşdırılması, biznes proseslərinin sadələşdirilməsi və sahibkarlar üçün daha şəffaf mühitin yaradılması istiqamətində qəbul edilən yeni qərarlar bu transformasiyanın institusional əsaslarını gücləndirir.

Süni intellekti yalnız insan əməyini əvəz edən texnologiya kimi qiymətləndirmək düzgün olmazdı. Əsas məsələ ondan ibarətdir ki, süni intellekt əmək bazarını yenidən formalaşdıracaq, yeni peşələr yaradacaq, mövcud ixtisasların məzmununu dəyişəcək və iqtisadiyyatın daha çevik fəaliyyət göstərməsinə imkan verəcək. Bu prosesə vaxtında uyğunlaşan sahibkarlar və işçilər isə yaranan yeni imkanlardan daha çox faydalana biləcəklər".

***Günay Hacıyeva***



# Görsəydik, görərdik ki...

MƏTANƏT

***Bizim yaxşı görməyə ehtiyacımız var. Ona görə ki, yaxşı görəriksə, sadəcə baxmarıq, həm də görərik. Məsələn, görərik ki, biz insanlar ekologiyanın qənimiyik. Dənizin, çimərliklərin, təbiətin düşmənləriyik. Qırırıq, dağıdırıq, çirkləndirik, məhv edirik. Lakin bunu görə bilmirik, yaxşı görsək, görə bilərik. Görərik ki, ayağımızı haraya qoyuruqsa, orada əvvəlki vəziyyətdən əsər-əlamət qalmır. Biz gedirik, bizdən sonra yerdə izlərimiz qalır. O izlər ki, nə siz soruşun, nə mən deyim...***

Bizim yaxşı göz həkimlərinə ehtiyacımız var ki, həqiqətən də ölkəmizdə çox gözəl oftalmoloqlar var. Hansısa bir göz xəstəliyi üçün müraciət etdikdə, problemimizi köklü həll edən həkimlərimiz var. Biz nə etməliyik, hər hansı xəstəliklə qarşılaşdığımız an onlara müraciət etməliyik. Çünki göz elə bir həssas orqandır ki, onunla zarafat olmaz. Həm də bizim sağlam gözə ehtiyacımız var ki, yaxşı görə bilək. Görək ki, dünəni dünəndə qoymuşuq. Dünəndən bu günə ta artıq heç nə daşımamışıq. Adət-ənənələrimizi, ailə dəyərlərimizi, geyim, danışıq, küçə mədəniyyətini göz görə-görə dünəndə qoyub bu günlərə gəlmişik. Allah eləməsin, kor deyilik, baxırıq, lakin acı həqiqətləri necə, görə bilirikmi? Görürükmü ki, biz ta biz deyilik, başqalaşırıq?..

Bizim yaxşı görməyə ehtiyacımız var, tək bizim deyil, dünyadakı hər insanın. Ona görə ki, yaxşı görəriksə, ətrafa da göz gəzdirə bilərik. Heç uzağa getməyək, özümüzdən danışaq. Məsələn, dünyanın gözləri yaxşı görərdisə, bizim qonşuluqdan kənar qonşumuzun nə olduğunu çoxdan görmüş olardı. Uzun illər onların müdafiəsinə qalxmazdı. Haqsızlığın ayaq tutub yeridiyi dünyada bu ayaqları qırardı, erməni ədalətsizliyinə kor-korana yanaşmazdı. Dünyanın o başından ətrafa gözləri duran yerdə əlləri ilə təmas etməkdən çəkinərdilər.

Bizim görməyə ehtiyacımız var ki, hər şeyi görə bilək. Görə bilək ki, bu dünya əzəlki dünya deyil. Ətrafa xəstəliklər səpən dünyadır. "Burada mən, cənnətdə kor xəlifə" iddiasında olan dünyadır. Bu səbəbdən də zalım dünyadır. Acımadan yox edən, özünə dartan, "mənimdir",- deyən dünyadır. Görsək, görə bilərik ki, bu dünya yaman fani dünyadır. Bu faniliyi insanlara da yansıdan dünyadır.

İnsanların bir-birinə quyu qazmaq meyli, bir-birinə qarşı müharibələr tətbiq etmək, ədalətsizliyin ədalət üzərində hökmranlığı, bəli, dünyanın fani olduğunu görə bilmədiyimizdən irəli gəlir. Hər gün dünyada yüzlərlə, minlərlə insan dünyasını dəyişir. Xeyr, onlar öz əcəlləri ilə ölmür, hər hansı bir müharibənin, hər hansı bir münaqişənin qurbanı olurlar. Çoxsaylı uşaq həyatını itirir hər gün. Valideynləri gözləri önündə can verir. Bütün bunlara biz sadəcə baxırıq, lakin görə bilmirik. Həqiqəti, reallığı görə bilmirik. Görə bilsəydik, təbii ki, insan olduğumuzu da görə bilər və bütün bunların insanlığa yaraşmayan hal olduğunu dərk edə bilərdik.

Sadəcə baxmaqla kifayətlənməyib görə də bilsəydik, görərdik ki, bizim olan dünyanı öz əlimizlə məhvə sürükləyirik. Bir-birimizə olan iddialarımızla, bəzən özümüzü kimdənsə artıq tutmağımızla, dünya varının məhz bizim olması arzusu ilə çabalayırıq. Lakin görə bilsəydik, bütün bunların boş və puç olduğunu da görə bilərdik. Və dünyada sadəcə insan kimi yaşayardıq.

Görmək... Nə böyük xoşbəxtlikdir, İlahi.. Odur ki, hər kəsə görməyi arzu edək. Çünki görməliyik ki, görə bilək. Görə bilməsək, nə dostu, nə düşməni tanıyarıq, nə yaxşını, nə pisi ayırd edə bilərik...

# Yeni ev almaq istəyənlər nəyə diqqət etməlidir?

***Ev almaq bir çox insan üçün həyatının ən böyük maliyyə qərarlarından biridir. Buna görə də mənzil seçərkən yalnız qiymətə və görünüşə baxmaq kifayət etmir. Mənzilin yerləşdiyi ərazi, binanın sənədləri, tikintinin keyfiyyəti, kommunal xərclər, nəqliyyat imkanları, gələcəkdə həmin evin satılmasının nə qədər asan olacağı və hətta mənzilin hansı mərtəbədə yerləşməsi belə qiymətləndirilməlidir.***

Hazırda Azərbaycanda, xüsusilə Bakıda mənzil bazarında qiymətlərin artım tendensiyası müşahidə olunur. Azərbaycan Qiymətləndiricilər Palatasının 2026-cı ilin iyul məlumatlarına görə, Bakı üzrə yeni tikili mənzillərin median qiyməti 1 kvadratmetr üçün təxminən 2 813 manat, köhnə tikililərdə isə 2 617 manat olub. Dekabr 2025-lə müqayisədə yeni tikililərdə artım 6,5 faiz, köhnə tikililərdə isə 3,8 faiz təşkil edib.

Bu rəqəmlər onu göstərir ki, "bir qədər gözləyim, qiymətlər mütləq ucuzlaşacaq" yanaşması hər zaman özünü doğrultmaya bilər. Digər tərəfdən, sırf qiymət artımından qorxaraq tələsik ev almaq da düzgün strategiya deyil. Əsas məsələ büdcəyə, məqsədə və gələcək planlara uyğun mənzil seçməkdir. SİA mövzu ilə bağlı araşdırma edib.



## Yeni tikili, yoxsa köhnə tikili?

Ev alanların qarşısında ilk suallardan biri budur: yeni tikili daha sərfəlidir, yoxsa köhnə tikili? Yeni tikilinin əsas üstünlüklərindən biri binanın daha müasir infrastruktura malik olması, lift, parkinq, həyət, təhlükəsizlik və digər imkanların nəzərdə tutulmasıdır. Mənzilin planlaşdırılması da adətən daha müasir olur. Bundan başqa, yeni tikili mənzillər sonradan kirayəyə verilməsi və satılması baxımından da müəyyən üstünlüklərə malik ola bilər.



Lakin yeni tikilidə yalnız mənzilin qiymətinə baxmaq olmaz. Təmir xərcləri, kommunal və xidmət haqları, parkinq, binanın idarəetmə haqqı kimi əlavə ödənişlər də əvvəlcədən hesablanmalıdır. AQP-nin məlumatına görə, 2026-cı ilin iyulunda yeni tikili mənzillər üzrə satış müddəti təxminən 11-15 gün olub və bu seqment yüksək likvidlik göstərib. Köhnə tikilinin isə əsas üstünlüyü ondan ibarətdir ki, ətrafdakı infrastruktur artıq formalaşıb. Məktəb, bağça, market, ictimai nəqliyyat, poliklinika və digər obyektlərin mövcudluğu əvvəlcədən məlumdur. Həmçinin bəzi köhnə binalarda eyni ərazidə yeni tikililərlə müqayisədə daha münasib qiymətə mənzil tapmaq mümkündür.

Ancaq köhnə binanın yaşı, kommunikasiya xətləri, liftin vəziyyəti, binanın konstruktiv vəziyyəti və gələcəkdə təmir xərcləri mütləq nəzərə alınmalıdır.

## Ən ucuz mənzil həmişə ən sərfəli mənzil deyil

Mənzil bazarında ən böyük səhvlərdən biri yalnız kvadratmetrin qiymətinə baxmaqdır. Məsələn, daha ucuz ərazidə 100 kvadratmetrlik mənzil almaq ilk baxışda sərfəli görünə bilər. Amma həmin mənzilin işə, məktəbə və digər gündəlik məntəqələrə uzaqlığı hər gün əlavə vaxt və nəqliyyat xərci yaradırsa, uzunmüddətli perspektivdə bu "ucuzluq" o qədər də sərfəli olmaya bilər. Əksinə, bir qədər baha ərazidə yerləşən, nəqliyyat imkanları yaxşı olan və tələb görən mənzil gələcəkdə daha asan satıla və ya kirayəyə verilə bilər.

2026-cı ilin iyulunda AQP məlumatlarında premium ərazilərdə - Səbail, Nərimanov və Nəsimidə - median qiymətlər daha yüksək olub. Eyni zamanda Abşeron, Sumqayıt və Qaradağ kimi ərazilərdə qiymətlər daha aşağı səviyyədə formalaşıb. Bu baxımdan ev seçərkən "mən bu mənzili neçə manata alıram?" sualı ilə yanaşı, "5 il sonra bu mənzilə kim maraq göstərəcək?" sualını da vermək lazımdır.

## Mənzil alarkən sənəd məsələsi ən vacib məqamlardandır

Xüsusilə yeni tikilidə mənzil alan şəxslər üçün sənədləşmə məsələsi ciddi əhəmiyyət daşıyır. Mənzil almadan əvvəl yalnız satıcının təqdim etdiyi sənədlərə güvənmək düzgün deyil. Binanın özünün hüquqi statusu, tikinti və istismara qəbul sənədləri, mənzilin dövlət qeydiyyatı məsələsi araşdırılmalıdır.

Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, MTK tərəfindən inşa edilmiş binada mənzilə çıxarış almaq üçün binanın istismara qəbul edilməsi ilə bağlı aktının olması mühüm şərtlərdən biridir. MMC tərəfindən tikilmiş binada isə binanın həmin şirkətin adına dövlət reyestrində qeydiyyata alınıb-alınmadığı da yoxlanmalıdır.

Yəni mənzilin gözəl təmiri, yaxşı mənzərəsi və münasib qiyməti sənədlərlə bağlı problemi kompensasiya etmir.

## İpoteka ilə ev almaq sərfəlidirmi?

Əgər şəxsin bütün məbləği birdəfəyə ödəməyə imkanı yoxdursa, ipoteka mühüm alternativdir. İpoteka və Kredit Zəmanət Fondunun hazırkı şərtlərinə əsasən, adi ipoteka kreditində mənzil qiymətinin ən azı 15 faizi, güzəştli ipotekada isə ən azı 10 faizi ilkin ödəniş kimi tələb olunur. Maksimal illik faiz dərəcəsi zəmanətsiz adi ipotekada 8 faiz, güzəştli ipotekada 4 faizdir; zəmanətli kreditlər üzrə bu göstəricilər müvafiq olaraq 7 və 3,7 faizdir.



2026-cı ilin ilk yarısında Fondun vəsaiti hesabına ümumilikdə 226,3 milyon manat məbləğində 2242 ipoteka krediti verilib. Kreditlərdən faydalananların 67 faizini gənclər və gənc ailələr təşkil edib. Amma burada əsas məsələ bankın maksimum verdiyi məbləğ deyil, ailənin rahat şəkildə ödəyə biləcəyi məbləğdir. Bankın sizə yüksək məbləğdə kredit verməsi həmin məbləği götürməyin mütləq doğru olduğu anlamına gəlmir. Aylıq ödənişlə yanaşı, kommunal xərclər, uşağın təhsili, ərzaq, nəqliyyat, təmir və gözlənilməz xərclər də nəzərə alınmalıdır.

## Təmirli ev, yoxsa təmirsiz?

Bu da çox mübahisəli məsələdir.

Təmirsiz mənzil ilk baxışda daha ucuz görünür. Lakin alıcı təmirin real xərclərini ayrıca hesablamalıdır. Döşəmə, elektrik sistemi, santexnika, qapılar, mətbəx, sanitar qovşağı, boya, işıqlandırma və digər işlər ümumi büdcəni ciddi şəkildə artıra bilər.

Digər tərəfdən, hazır təmirli mənzil alarkən də "təmirli" sözünə aldanmaq olmaz. İstifadə olunan materialların keyfiyyəti, elektrik və su sistemlərinin vəziyyəti, təmirin nə vaxt aparıldığı yoxlanmalıdır. AQP-nin 2026-cı il məlumatlarında təmirli və təmirsiz yeni tikili mənzillər arasında qiymət fərqinin təxminən 20-25 faizə çata bildiyi göstərilir. Ona görə də bəzən bir qədər baha, amma keyfiyyətli təmirli mənzil almaq daha sərfəli ola bilər; bəzən isə təmirsiz mənzil alıb təmiri öz zövqünə və büdcənə uyğun etmək daha məqsədəuyğundur.

## Mənzil alarkən hansı xüsusiyyətlərə üstünlük vermək lazımdır?

Əgər məqsəd həm yaşamaq, həm də gələcəkdə əmlakı satmaq və ya kirayəyə verməkdirsə, ən təhlükəsiz seçim adətən yaxşı yerləşmə + normal planlaşdırma + sənədlilik + likvidlik kombinasiyasıdır. Mənzilin çox böyük olması həmişə üstünlük deyil. Məsələn, ailə üçün rahat 2 və ya 3 otaqlı, yaxşı planlaşdırılmış mənzil bəzən çox böyük, lakin istifadəsi çətin mənzildən daha likvid ola bilər.

Mərtəbə də önəmlidir. Birinci mərtəbədə təhlükəsizlik, rütubət və səs-küy; son mərtəbədə isə dam örtüyü, istilik və su izolyasiyası kimi məsələlər yoxlanmalıdır. Orta mərtəbələr bu baxımdan daha rahat seçim ola bilər. Liftin sayı, binanın parkinqi, həyətin vəziyyəti, mənzilin gün işığı alması, pəncərələrin istiqaməti, qonşu mənzillərin yerləşməsi və səs-küy səviyyəsi də qiymətləndirilməlidir.

## Bəs hazırda ev almaq, yoxsa gözləmək?

Mövcud göstəricilər bazarda kəskin ucuzlaşma deyil, daha çox mülayim artım və balanslaşma tendensiyasının olduğunu göstərir. 2026-cı ilin iyulunda yeni tikili seqmentində dekabr 2025-lə müqayisədə 6,5 faizlik artım qeydə alınıb. Bu səbəbdən "mütləq qiymətlər düşəcək" düşüncəsi ilə uzun müddət gözləmək riskli ola bilər. Amma ev almaq qərarı yalnız bazarın istiqamətinə əsaslanmamalıdır.

Əgər alıcının sabit gəliri, ilkin ödənişi və uzunmüddətli yaşayış planı varsa, uyğun mənzil tapıldıqda alış məntiqli ola bilər. Əgər ilkin ödəniş üçün bütün yığım xərclənəcək, aylıq kredit ödənişi gəlirin böyük hissəsini aparacaq və əlavə maliyyə ehtiyatı qalmayacaqsa, bu halda bir qədər gözləmək daha təhlükəsizdir.

Nəticə etibarilə, ən sərfəli ev ən ucuz ev deyil. Ən sərfəli ev sənədi qaydasında olan, yerləşməsi yaxşı, gündəlik ehtiyaclara uyğun, saxlanma xərcləri idarəolunan və gələcəkdə də alıcısı tapıla biləcək mənzildir. Ev alarkən qiymətdən əvvəl sənədə, ərazidən əvvəl infrastruktura, gözəl təmirdən əvvəl binanın keyfiyyətinə və aylıq ödənişdən əvvəl öz real büdcənizə baxmaq daha doğrudur.

***Ayşən Vəli***

# Çəksən də öldürür, çəkməsən də: siqaret bəlası

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*




***46 ölkədə 240.000-dən çox siqaret çəkən insanı əhatə edən yeni bir araşdırma, tütünün ürək-damar sisteminə zərərini bir daha sübut edib. Siqaretlərin yalnız siqaret çəkənlərdə deyil, həm də ətrafındakı insanlarda ürək xəstəliklərinə, infarktlara və insultlara səbəb ola biləcəyini bilənlər isə çox azdır.***

"BMJ Open"də (British Medical Journal) dərc olunan böyük bir beynəlxalq araşdırma, illərlə davam edən tütün nəzarəti siyasətlərinə, qrafik xəbərdarlıqlara və ictimai səhiyyə kampaniyalarına baxmayaraq, son iki onillikdə siqaret çəkməyin sağlamlıq nəticələri barədə məlumatlılığın çətinliklə artdığını aşkar etdi.

Vaterloo Universitetində Beynəlxalq Tütün Nəzarəti Siyasətinin Qiymətləndirilməsi Layihəsinin (ITC Layihəsi) tədqiqatçısı və tədqiqatın aparıcı müəllifi Janet Chung-Hall mətbuat açıqlamasında bildirib ki, "Siqaret çəkməyin və ikinci əl tüstünün əsas sağlamlıq təsirləri haqqında savadsızlıq dərin narahatlıq doğurur".

Çunq-Hol əlavə edib ki, siqaret çəkmək hər il dünyada 2 milyondan çox ürək-damar ölümünə səbəb olur, siqaret çəkmənin və passiv tütün çəkmənin ürək-damar xəstəliklərinə səbəb olması barədə məlumatlılığın aşağı olması xüsusilə. Ürək-damar xəstəlikləri dünyada yoluxucu olmayan xəstəliklərdən vaxtından əvvəl ölümün əsas səbəbidir və siqaret çəkmək əsas dəyişdirilə bilən risk faktorlarından biridir.

Tədqiqatçılar Beynəlxalq Tütün Nəzarəti Layihəsinə və Ümumdünya Səhiyyə Təşkilatının Qlobal Yetkin Tütün Sorğusuna əsaslanaraq 46 ölkədə siqaret çəkən 240.000-dən çox yetkin insanın məlumatlarını təhlil ediblər. Tədqiqat 2002-2022-ci illər arasında aparılan sorğuları əhatə edir.

Respondentlərin 90%-dən çoxu siqaret çəkməyin ağciyər xərçənginə səbəb ola biləcəyini bilsə də, yalnız təxminən 80%-i ürək xəstəliyini siqaret çəkməyin nəticəsi kimi müəyyən edib və daha az adam insult riski, eləcə də passiv tütün çəkmə riskləri barədə məlumatlı olub.

Tədqiqat Avropa ölkələrini də əhatə edib. Tədqiqatçılar, siqaret çəkməyin ağciyər xərçənginə səbəb olduğu barədə məlumatlılığın Hollandiyada əhəmiyyətli dərəcədə artdığını, lakin Almaniya, Fransa və Rumıniyada azaldığını aşkar etdilər. Almaniya, Fransa və Niderlanda passiv tütün tüstüsünün təhlükələri haqqında məlumatlılıq da azalıb.

Avropa Birliyi sağlamlıq xəbərdarlıqları tələbləri, tütün reklamı və təşviqinə məhdudiyyətlər də daxil olmaqla, tütün qaydalarını tədricən sərtləşdirib. 6 AB ölkəsində aparılan əvvəlki tədqiqatlar göstərib ki, siqaretlə əlaqəli risklər haqqında siqaret qutularındakı xəbərdarlıqlardan daha güclü təsirlər barədə məlumat vermək lazımdırdır.

"Məlumatlılıq siqareti tərgitmək və başqalarını passiv tütün tüstüsündən qorumaq üçün vacib ilk addımdır", - deyə ITC Layihəsinin baş tədqiqatçısı və Vaterloo Universitetinin Psixologiya və İctimai Səhiyyə Elmləri üzrə professoru Ceffri T. Fong bildirib: "Araçdırmamız hökumətlərin siqaret çəkmə və tüstüsünə məruz qalmağın ürək-damar, eləcə də xərçəng riskləri barədə daha güclü və davamlı ictimai maarifləndirmə aparmasının vacibliyini vurğulayır. Tədqiqat göstərir ki, Böyük Britaniyanın "tüstüsüz nəsil" siyasəti siqaret çəkməni azalda və sağlamlığı gücləndirə bilər

Qeyd edək ki, araşdırma bir neçə Avropa ölkəsinin gənclər arasında siqaret çəkmə nisbətini azaltmaq üçün tütün və nikotin məhsullarına məhdudiyyətləri sərtləşdirdiyi bir vaxtda ortaya çıxdı.

Aprel ayında Birləşmiş Krallıq "tütünsüz" nəsil yaratmaq üçün 2008-ci ildə və ya ondan sonra doğulmuş hər kəsə tütün məhsullarının satışını daimi olaraq məhdudlaşdıran tütün əleyhinə qanun layihəsini qəbul etdi.

Belçika və Latviya 2025-ci ilin yanvar ayında birdəfəlik istifadə üçün nəzərdə tutulan elektron siqaretlərin satışını qadağan etdilər, çünki bu, onların gənclər üçün cəlbediciliyi və ətraf mühitə təsiri ilə bağlı narahatlıqları doğururdu. İspaniya və Fransa ötən il ictimai yerlərdə açıq havada siqaret çəkməni məhdudlaşdırmaq üçün yeni qaydalar tətbiq etdilər.

Avropa Komissiyası 2040-cı ilə qədər siqaret çəkmə nisbətini bu gün təxminən 25%-dən 5%-dən aşağı endirərək "tütünsüz nəsil" yaratmağı hədəfləyir. Bu arada, Avropa Komissiyası son on ildə AB Tütün Məhsulları Direktivi çərçivəsində mentol da daxil olmaqla xarakterik dadlara malik ənənəvi ətirli siqaretləri və özün hazırladığı tütünü qadağan etdi.

Tütün istifadəsi dünyada qarşısı alına bilən xəstəlik və ölümün əsas səbəbidir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, hər il 7 milyondan çox insanın, o cümlədən tüstüsünə məruz qalan 1,6 milyondan çox siqaret çəkməyən insan ölümünə səbəb olur.

***Lalə Mehralı***

# Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələdə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23-24 avqust 2026-cı il tarixlərində Özbəkistan Respublikasına dövlət səfəri iki qardaş ölkə arasında münasibətlərin inkişafında mühüm siyasi hadisə kimi yadda qaldı. Səfər Azərbaycan-Özbəkistan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsində daha da möhkəmləndirilməsi, siyasi dialoqun dərinləşdirilməsi və iqtisadi-humanitar əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.



***Elxan Quliyev, əməkdar müəllim***

Dövlət səfəri çərçivəsində Azərbaycan və Özbəkistan rəhbərlərinin keçirdiyi görüşlər iki ölkə arasında mövcud münasibətlərin yüksək səviyyəsini bir daha nümayiş etdirdi. Qarşılıqlı etimad, dostluq və qardaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Özbəkistan münasibətləri son illərdə sürətlə inkişaf edərək çoxşaxəli əməkdaşlıq modelinə çevrilib.

Azərbaycanla Özbəkistan arasında mövcud əlaqələr ikitərəfli əməkdaşlıqla yanaşı, Mərkəzi Asiya ilə Cənubi Qafqaz və Avropanı birləşdirəcək geosiyasi və geoiqtisadi proses kimi qiymətləndirilir. Bununla da Azərbaycan coğrafi cəhətdən Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, Mərkəzi Asiya regionunun da bir hissəsi kimi qəbul edilir.



Xüsusilə qeyd etmək lazımdır ki, münasibətlərin qardaşlıq və strateji müttəfiqlik səviyyəsinə yüksəlməsində Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasındakı səmimi dostluq və etimad mühüm rol oynayır. İki dövlətin liderləri arasında olan bu münasibət dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına da böyük təkan verir.

Səfər zamanı Prezident cənab İlham Əliyev mətbuata bəyanatla çıxışında iki dövlət arasında enerji, nəqliyyat, bank sektoru, avtomobil sənayesi, turizm və bir sıra digər sahələrdə əməkdaşlığın daha da genişləndiriləcəyini vurğuladı. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin yaxın vaxtlarda 1 milyard dollara çatdırılması barədə qərar olduqca önəmli bir addımdır. SOCAR-ın Özbəkistanda yeni layihələrdə iştirakının artırılmasını da xüsusi qeyd etmək lazımdır, eyni zamanda enerji sahəsində əməkdaşlıq da olduqca əhəmiyyətli addımdır. Azərbaycanla Özbəkistan arasında neftqaz kəşfiyyat layihələrinin son mərhələyə çatması olduqca strateji bir hadisədir və gələn il istismar quyularının qazılması haqqında qərar iki dövlət arasında enerji əməkdaşlığının mühüm göstəricisidir. Bu, həm də Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə enerji əlaqələrinin dərinləşməsinə böyük töhfə verəcəkdir.

Qarabağın bərpasında Azərbaycan-Özbəkistanın əməkdaşlığı da bu regional yanaşmanın mühüm nümunəsidir. Füzulidə Mirzə Uluqbəy adına məktəbin inşası və Xankəndidə həyata keçirilən investisiya layihələri iki ölkə arasındakı siyasi həmrəyliyin iqtisadi və sosial təşəbbüslərdə təcəssümüdür. Qarabağda reallaşdırılan bu layihələr Azərbaycan-Özbəkistan münasibətlərinin yalnız ikitərəfli xarakter daşımadığını, eyni zamanda, Türk dünyası ölkələrinin respublikamızın ərazi bütövlüyünün bərpasından sonra regionun inkişafında fəal iştirak etdiyini göstərir.

Bir sözlə, Azərbaycanla Özbəkistan arasında sıx siyasi-iqtisadi, eləcə də qardaşlıq əlaqələri iki dövlətlə yanaşı, Türk dünyasının inteqrasiyasına böyük təkan verir.

SƏS
1 sentyabr
2026-cı il

# Ailə qurmaq istəyənlərin sayı azalır - TƏHLÜKƏ QAPIDADIR!





“Müşahidə olunan tendensiya ondan ibarətdir ki, Azərbaycanda, xüsusilə gənc əhali arasında ailə qurmadan da yaşamağın və həyatını davam etdirməyin mümkün olduğu düşüncəsi formalaşır”. Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib. Onun sözlərinə görə, əslində, bu, müəyyən qədər təhlükəli tendensiyadır: ”Çünki ailə qurmağa meylin azalması tədricən ailə institutunun özünün mövcudluğu məsələsini gündəmə gətirir.

Ailə institutuna və ailə qurmağa münasibət müəyyən şəkildə dəyişirsə və bu tendensiya davam edərsə, gələcəkdə ailə institutunun hansı formada mövcud olacağı sualı ortaya çıxır. Ümumiyyətlə, insanlar ailə qurmağa meyl edəcəklərmi, yoxsa ailəni məsuliyyət kimi qəbul edərək bu məsuliyyətdən kənarda qalmağa üstünlük verəcəklərmi? Belə ehtimalların mövcudluğu qeyd etdiyimiz tendensiyanın kifayət qədər ciddi olduğunu göstərir.

Bu prosesin sosial, iqtisadi, psixoloji və mənəvi-əxlaqi səbəbləri var. Müasir dövrdə ailə qurmaq əvvəlki dövrlərdə olduğu kimi məcburi xarakter daşımır. İnsan üçün ailə qurmaq da, qurmamaq da seçimə çevrilib. Ailə qurmadan da müstəqil həyat sürməyin mümkün olduğu düşüncəsi getdikcə daha çox yayılır. Bu baxımdan, ilk növbədə müşahidə olunan bu tendensiyanı mənfi istiqamət kimi qiymətləndirmək mümkündür.

Səbəblərdən danışarkən, əlbəttə ki, sosial-iqtisadi amilləri xüsusi qeyd etmək lazımdır. Burada ”maddi təminata hazırlıq” anlayışı ön plana çıxır. İnsanların bu gün ailə qurmaq üçün hansı maddi imkanlara malik olması, ailə qurmaq üçün tələb olunan xərclərin nədən ibarət olması və gənclərin mövcud gəlirlərinin bu tələblərə nə dərəcədə uyğun gəlməsi mühüm məsələlərdir. Bugünkü reallıqda gənclərin iş imkanları, aylıq gəlirləri və qarşıya qoyulan maddi tələblər arasında müəyyən uyğunsuzluqların olması ailə qurmağa meylin azalmasına təsir edən amillərdən biri hesab oluna bilər.

Bununla yanaşı, təhsil və karyera məsələsini də qeyd etmək lazımdır. Müasir gənclər ailə qurmazdan əvvəl daha keyfiyyətli təhsil almağa, öz karyeralarını formalaşdırmağa, müstəqil şəkildə iş sahibi olmağa və ya şirkətdə, dövlət qurumunda qənaətbəxş əməkhaqqı qarşılığında çalışmağa üstünlük verirlər. Bu düşüncə də reallıqdır.

Gənclər öz potensiallarını ilk növbədə təhsil, karyera və iş imkanlarının formalaşdırılmasına yönəldir, ailə qurmağı isə həyatlarının sonrakı mərhələsinə saxlayırlar. Bunun nəticəsi olaraq Azərbaycanda nikaha daxilolma yaşı da yüksələn xətt üzrə inkişaf edir. Əvvəlki illərlə müqayisədə gənclərin daha erkən yaşlarda ailə qurması tendensiyası zəifləyib və nikaha daha yuxarı yaşlarda daxilolma meyili getdikcə artır”.

*Lətifə Musayeva*

## ELAN

YAP Xətai rayon təşkilatı tərəfindən Tanırverdiyev Rövşən Hüseyin oğluna verilmiş 886764 N-li YAP üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

05 oktyabr 2026-cı il tarixində saat 11:00-da Ağdaş şəhəri M. Rəsulzadə küçəsi ünvanında yerləşən ”Ağdaş Bazar” ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

1. Təşkilati məsələ: İdarə heyətinin sədrinin və üzvlərinin yenidən seçilməsi.

2. Digər məsələlər.

Qeyd: Ümumi yığıncağın gündəliyi üzrə əlavə məlumatları (materialları) iş günləri saat 10:00-dan 13:00-dək ”Ağdaş Bazar” ASC-nin inzibati binasında tanış ola bilərsiniz.

“Ağdaş Bazar” ASC İdarə heyətinin sədri

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ər-arvad bir-birinin borcuna görə cavabdehdir?

MÜTƏXƏSSİS AÇIQLADI



***Ər-arvaddan birinin banka olan borcuna görə digər həyat yoldaşının gəlirinə və ya əmlakına tutma yönəldilə bilərmi? Son dövrlərdə bu məsələ xüsusilə bank borcları fonunda müzakirə olunur. Məsələ ilə bağlı hüquqşünas Əkrəm Həsənov SİA-ya açıqlamasında bildirib ki, belə hallarda nikah dövründə əldə olunan əmlakın hüquqi statusu mühüm rol oynayır:***

”Məsələn, arvadın banka borcu olduğu, lakin özünün gəlirinin olmadığı halda, ərinin pensiyası müəyyən hallarda borcun ödənilməsi üçün nəzərə alına bilər: ”Ər-arvadın nikah dövründə əldə etdiyi gəlir və əmlak, bir qayda olaraq, onların birgə mülkiyyəti hesab olunur. Bu səbəbdən də borclunun həyat yoldaşının gəliri və ya əmlakı ilə bağlı məsələlər də ortaya çıxa bilər”. Ə.Həsənov qeyd edib ki, bu cür hallarda nikah müqaviləsi əhəmiyyətli hüquqi vasitədir. Tərəflər nikah müqaviləsi ilə gəlirlərinin və əmlaklarının ayrıca mülkiyyətə aid olmasını müəyyən edə bilərlər.

Hüquqşünasın sözlərinə görə, nikah müqaviləsi yalnız nikahdan əvvəl deyil, nikah dövründə də bağlana bilər. Hətta borcla bağlı icra prosesi başladıqdan sonra da belə müqavilənin bağlanması mümkündür: ”Əgər ər-arvad nikah müqaviləsi bağlayaraq hər birinin gəlirinin və əmlakının yalnız özünə məxsus olduğunu müəyyən edərsə, digər həyat yoldaşının borcuna görə bu əmlaka və gəlirə yönəlmənin qarşısını almaq mümkün ola bilər”.

*Arzu Qurbanlı*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000